DOI: 10.36719/2663-4619/60/177-180

**Könül Akif qızı Xudazadə**
Konul.akbar.31@gmail.com
Azərbaycan Dövlət Pedaqoji Universiteti

# MÜƏLLİM PEŞƏSİNƏ HAZIRLIĞIN PSİXOPEDAQOJİ TƏDQİQİ İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *müəllim peşəsi, psixoloji hazırlıq, müəllim hazırlığı, tədqiqi istiqamətlər, psixopedaqoji məsələlər*

## Psychopedagogical research directions of teacher training

**Summary**

The article focuses on psychopedagogical issues of teacher training and research in this area. Difficulties in teacher training are due to a number of reasons. These reasons are due to the fact that there are significant differences between the education systems in different countries and the different application of principles and methods of teaching. Since teacher training models cannot be mechanically applied to different education systems, teacher training issues require serious research. The research in the article is classified as research conducted in two directions - in our country and abroad - according to the place and level of development.

***Key words:*** *teacher profession, psychological training, teacher training, research directions, psychopedagogical issues*

## Giriş

Müasir təhsilin innovativliyinin təmin edilməsi, həmçinin təlim prosesində dərsin humanistyönmülü tendensiyasının davam etdirilməsi, mənimsəmənin optimallığına və effektivliyinə şərait yaradılması tələbələrin müəllim peşəsinə psixoloji hazırlığından çox asılıdır. Tələbələrin müəllim peşəsinə psixoloji hazırlığının tədqiqinin aparılması üçün birmənalı tədqiqat işlərinə rast gəlmək olduqca çətindir. Bunun bir çox səbəbləri vardır. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

- Əvvəla, müxtəlif ölkələrdə təhsil sistemi arasında ciddi fərqlər var. Tədrislə bağlı prinsiplər və üsullar fərqlidir.
- İkincisi, müəllim peşəsinə hazırlığın müxtəlif konseptual modelləri alternativsiz variant kimi qəbul edilə və müxtəlif təhsil sistemlərinə mexaniki tətbiq edilə bilməz.
- Üçüncüsü, müəllim peşəsinə yiyələnən və hazırlanan tələbə özünəməxsus mədəniyyətin daşıyıcısı olur və bu baxımdan müəllim hazırlığında milli-etnik xüsusiyyətlər fərqli cəhətlərə malik olur.

Ancaq bütün bunlarla yanaşı bir-birinə uyğun gələn, ortaq cəhətlər kəsb edən müəllim hazırlığının müxtəlf elementlərini özündə əks etdirən modellər qurmaq mümkündür. Bundan çıxış edərək tələbələrin müəllim peşəsinə hazırlığının tədqiqi istiqamətlərini müəyyən meyarlar əsasında qruplaşdırmağı məqsədəuyğun hesab etdik.

Lakin ilk öncədən qeyd etmək lazımdır ki, müəllim peşəsinə hazırlığın tədqiqi istiqamətlərinin müəyyən etmək üçün aydın görünən və müəyyən meyarlara əsaslanan təsnifat aparmaq çətindir. Buna görə də problemə həsr olunmuş tədqiqatları məkan prinsiplərinə görə, həmçinin problemin işlənilmə səviyyəsinə görə təsnif etməyi zəruri hesab etdik. Bu baxımdan tədqiqatları iki istiqamətdə qruplaşdıra bilərik:

1) Xarici ölkələrdə aparılmış tədqiqatlar;
2) Ölkəmizdə aparılmış tədqiqatlar.

Bu tədqiqatları nəzərdən keçirməzdən öncə tədqiqatın əsas istiqamətlərini müəyyən edən anlayışları təhlil etmək lazımdır.

Tədqiqatda iki aparıcı kateqoriya "müəllim peşəsi" və "psixoloji hazırlıq" açar anlayış kimi çıxış edir. Hər iki anlayışa aydınlıq gətirmədən müəllim hazırlığının istiqamətlərini müəyyən etmək, onun alternativ yol və vasitələrini tapmaq bir qədər çətindir. Həmçinin tədqiqatın metodoloji istiqamətinin müəyyən edilməsində də bu kateqoriyaların aydınlaşdırılmasına ciddi zərurət duyulur.

Pedaqoqların peşəyönümünə psixoloji hazırlığı peşəkar kimi formalaşmanın və peşəkarlıq səviyyəsinin yüksəldilməsinin əsas elementi kimi baxmaq olar. Bu aspektdə psixoloji hazırlığı peşə hazırlığının tərkib elementi kimi səciyyələndirirlər.

Bəs görəsən psixoloji hazırlıq nə deməkdir? Bu prosesi necə səciyyələndirmək olar?

Psixoloji hazırlıq prosesinin nəticəsi hazırlıq vəziyyəti kimi səciyyələndirilir. Psixoloji hazırlıq pedaqogikada psixologiyadan fərqli olaraq şəxsiyyətin iradi səylə səciyyələnən inteqral keyfiyyəti hesab

olunur. Nəzərə almaq lazımdır ki, müəyyən bir fəaliyyətə hazırlıq olduqca mürəkkəb dinamik sistemdir və özündə psixikanın intellektual, emosional, motivasiya və iradi komponentlərini əks etdirir.

Hazırlığın formasını müxtəlif tədqiqatçıar "ustanovka"- yönəliş kimi qiymətləndirirlər. D.B.Uznadze hesab edir ki, yönəlişliyi fəaliyyətə hazırlıq kimi səciyyələndirdikdə onu xüsusi psixoloji fenomen kimi deyil, sübyektin haləti-vəziyyəti kimi başa düşmək lazımdır. Dərk olunan və dərk olunmayan ustanovkaları, ehtimal edilən davranış modelini, fəaliyyətin optimal üsullarının müəyyənləşdirilməsini, özünün imkanlarının qarşıda dayanan çətinliklərə müvafiqliyinin qiymətləndirilməsini və müəyyən nəticəyə nailolma zərurətini yönəlişlik özündə ehtiva edir [4,s.27]. Bununla yanaşı D.N.Uznadze yönəlişliyi "subyektin bütöv dinamik vəziyyəti, "müəyyən aktivliyə hazırlıq halı"kimi xarakterizə edərək göstərirdi ki, o, "iki amillə": subyektin tələbatı və müvafiq obyektiv situasiya ilə şərtlənir" [1, s.155 ].

Psixoloji hazırlıq dedikdə hazırlıq nəticəsində əldə olunmuş və peşə fəaliyyətində müəyyən edilmiş nəticəyə nail olmağa imkan verən vəziyyət nəzərdə tutulur. Hazırlıq halı özündə insanı fəaliyyətə aktivləşdirən psixiofizioloji, o cümlədən emosional mexanizmləri əks etdirir. Ali sinir fəaliyyətinin fiziologiyası nöqteyi-nəzərindən fəallığa belə hazırlıq haləti insan hal-hazırda malik olduğu psixoloji yönəlişliklə müəyyən olunur. Orqanizmin hal-hazırkı vəziyyəti onun yönəlişliyini istiqamətləndirir.

Tədqiqatçıların fikrincə, "peşəkar hazırlıq" dedikdə, müəyyən bir peşədə uğurlu işləmək üçün imkan yaradan xüsusi bilik, bacarıq, keyfiyyət, iş təcrübəsi və davranış standartlarının məcmusunu başa düşülür. Peşəkar hazırlıq müəyyən işləri yerinə yetirməsi üçün lazım olan bacarıqlara yiyələnməni hədəfləyən peşə təhsili sistemidir. [5, s. 223].

O.A.Abdullina hesab edir ki, tələbələrin ümumi təhsil hazırlığının bütövlüyü və ardıcıllığı nəzəri və praktik təlimin qarşılıqlı əlaqəsi vasitəsilə həyata keçirildikdə və bu şərtlər - təlimin prosessual-əsaslı və motivasion-dəyər aspektlərinin vəhdətini təmin edən alətlər sisteminin mövcudluğu, eləcə də gələcək müəllimlərin ümumi pedaqoji hazırlığı prinsiplərinin və onun funksiyalarının qarşılıqlı əlaqəsinin vəhdəti müşahidə edildikdə əldə edilir [2, s.141].

Müasir dövrdə təhsil strategiyasının yenilənməsi, eləcə də Azərbaycan Respublikasında təhsilin inkişaf konsepsiyasının yaradılması müəllim hazırlığı ilə bağlı yeni məqamlar ortaya qoyur. Metodoloji imperativ kimi bu dəyişilmələrin əsası ənənəvi təhsildən uzaqlaşma və müasir təhsil paradiqmalarının dominantlığıdır. Tələbələrin psixoloji inkişafına və özünügerçəkləşdirməsinə cavab verən yeni startegiyaların yaradılması müəllimə ənənəvi baxışı dəyişir, deməli həm də müəllim hazırlığı problemlərinə yenidən yanaşma tələb edir.

Şübhəsiz, şəxsiyyətin inkişafı müasir təhsilin və ya məktəbin çıxış nöqtəsi və əsas vəzifələrindən biridir. Bununla bağlı olaraq bugünkü təhsildə müəllim-humanistlərə tələblər çoxalır, pedaqoji fəaliyyətdə öz dəsti xəttini yaradan müəllimlərə ehtiyac artır. Həmçinin münasibətlərin empatiya üzərində qurulması, pedaqoji fəaliyyətin şəxsiyyətyönümlülüyünün təmin edilməsi, tələbənin-şagirdin olduğu kimi qəbul edilməsi zərurəti fəaliyyətin optimal təşkilinin zəminləri kimi çıxış edir.

Müəllim hazırlığının psixopedaqoji məsələləri bu baxımdan yeni sosial mədəni situasiyanın tələblərinə uyğunlaşdırılmalı və ya bütünlüklə yenidən qurulmalıdır.

Təhsil sistemində özünü göstərən pedaqoji problemlərin həllini müəllim hazırlığına verilən tələbləri dəyişmədən həll etmək, bu sahədə dünyada mövcud olan sistemlərə inteqrasiya etmək mümkün deyildir. Müəllimlərin peşə hazırlığı müəyyən dərəcədə bu problemi həll edirsə də, onların şəxsiyyət keyfiyyətləri, müasir dünyagörüşü, texniki bacarıqları, həmçinin motivasiya imkanları birincilərdən geri qalır.

S.V.Baxtina göstərir ki, pedaqoji kadrların, o cümlədən müəllimin hazırlanmasında əsas diqqət təhsil sisteminin müasir vəziyyətinə, o cümlədən humanist-yönmülülüyünə əsaslanmalıdır. Çünki müəllim hazırlığında özünü göstərən xarakter xüsusiyyətlər fərdiyyətin daha çox inkişafına, nəticədə isə şagirdlərin özünütəsdiq imkanlarının azalmasına və ya səviyyəcə aşağı düşməsinə gətirib çıxarır [5, s.5].

Müəllim hazırlığının müasir problemlərini psixopedaqoji aspektdən təhlil edən E.B Faulinina göstərir ki, problemin həlli bir sıra ziddiyyətli məqamları özündə əks etdirir. Onun fikrincə, pedaqoji şəraitdə və təhsil məkanında müəllim hazırlığı müasir dövrdə həll edilməmiş problemlərdən biridir. Bununla bağlı müəllif bir sıra istiqamətlər ayırd edir:

Əvvəla, pedaqoji və psixoloji ədəbiyyatda geniş təbliğatın aparılmasına baxmayaraq təhsil praktikasında yaradıcı, məsuliyyətli, fəal yüksək vətəndaşlıq səviyyəsinə malik şəxsiyyətin inkişafına yönəlmiş humanistik yanaşma çərçivəsində təhsil prosesinin humanistləşdirilməsi və müəllim hazırlığı indiyə qədər bəyan edilmiş məqsədə çatmaq üçün praktik çətinliklərlə qarşılaşır. Bunları aradan qaldırmaq və ya kömək üçün təhsil prosesinin texniki təminatına diqqət yetirmək lazımdır.

İkincisi, indiyə qədər polimədəni təhsil prosesi kifayət qədər öyrənilməyib. Bununla yanaşı miqrasiya etmənin psixoloji konsepsiyası, həmçinin polimədəni təhsil mühitinin təşkilinin diaqnostik metodları və texnologiyası elmi baxımdan lazımı qədər öyrənilməmişdir.

Üçüncüsü, gələcək müəllimlərin psixopedqoji fəaliyyətə bütünlüklə hazırlanması bir tərəfdən olduqca geniş səciyyə daşıyır, digər tərəfdən isə bu problemin ayrı-ayrı aspektləri diqqət mərkəzinə gətirilir. Bununla yanaşı həm də tələbə-pedaqoqların səviyyəsinin, psixopedaqoji səriştəsinin artırılmasına istiqamətlənmiş tədbirlər nəzarətdən və ya müşahidədən kənardır. Belə nəzarət onların şəxsi və peşə istiqamətində özünütəyinin harmonik bütövlüyünün yaranmasına zəmin yarada bilərdi. [5, s.7].

Bütün bunlara bir məqamı da əlavə etmək istərdik ki, yeni tipli müəllim hazırlığı köhnə metodlarla aparıla bilməz. Qeyd etmək lazımdır ki, yeni tip müəllim hazırlığı yeni tip şəxsiyyətin formalaşmasının zəminidir. Bunun üçün peşə keyfiyyətləri praktik baxımdan şəxsiyyət keyfiyyətləri ilə uzlaşmalıdır. Məhz onda yeni tipli müəllim hazırlığının metodoloji istiqamətlərindən və sosial imperativlərindən danışmaq olar.

Müasir cəmiyyətin dinamikliyi fonunda şagirdlər özlərini müxtəlif formalarda gerçəkləşdirməyə çalışırlar. Bu təlimdə yaradıcı fəaliyyətdən tutmuş, antisosial davranışa qədər geniş bir sferanı əhatə edir. Şagirdin özünü neqativ istiqamətdə gerçəkləşdirməsinin qarşısını almaq üçün, onların motivlərini öncədən anlamaq üçün müəllim hazırlığının yüksəldilməsi vacibdir. Bu həm də yeni sosial şəratinin tələbləri nəzərə alnınmaqla həyata keçirilə bilər.

Tələblərin müəllim peşəsinə hazırlığında psixoloji məqamların nəzərə alınması şagirdin təlim fəaliyyətinin effektivliyində, ayrı-ayrı bilik, bacarıq və vərdişlərə yiyələnmədəki dinamikada, təhsil subyektlərinə məxsus potensial imkanların üzə çıxarılmasında və istiqamətləndirilməsində əsaslı fon yaradır. Lakin müəllimin peşə hazırlığı bu məsələni uğurlu həll edə bilmir. Burada müəllimin psixoloji hazırlığı və özünütəkmilləşdirməsi şagird şəxsiyyətinin özünügerçəkləşdirməsinin başlıca şərti olmaqla bərabər həm də, onlara hərtərəfli tərbiyə verilməsində xüsusi əhəmiyyət kəsb edir.

Şagird şəxsiyyətinin özünügerçəkləşdirməsində müəllim hazırlığının rolunun artırılması əslində bir sıra məsələlərin həllini tələb edir ki, bu da dolayısı yolla müəllim hazırlığının həyata keçirilməsində mövcud olan problemlərin diqqət mərkəzinə gətirilməsinə səbəb olur. Şagird şəxsiyyətinin özünügerçəkləşdirməsində müəllim hazırlığının həyata keçirilməsi üçün aşagıdakı məsələlər nəzərə alınmalıdır:

1.Müəllimin pedaqoji şəraiti və şagirdlərin şəxsiyyətini dərk edib, başa düşməsi və qiymətləndirməsi.

2. Müəllimin özünügerçəkləşdirməsinin üsul və yolları.

Qeyd etmək lazımdır ki, müəllimin şagirdlərin şəxsiyyətini dərk edib, başa düşməsi, qiymətləndirməsi onun peşə fəaliyyətinin motivasiyası ilə sıx bağlıdır. Burada peşə fəaliyyətinin motivasiyasının piroritet kəsb etməsi təsadüfi deyildir. Məlumdur ki, insan fəaliyyətinin strukturunda motivasiya xüsusi yer tutur. Tədqiqatlar göstərir ki, «zəif» və «güclü» şagirdlər yalnız intelektin səviyyəsinə görə deyil, həm də təlim fəaliyyətinin motivasiyasının strukturunun səviyyəsinə görə fərqləndirilir. Pedaqoji fəaliyyət hər şeydən əvvəl fəaliyyətin effektivliyini təmin edən motivasiyanın ümumpsixoloji qanunauyğunluqlardan kənarda götürülə bilməz. Göründüyü kimi tələbələrin müəllim peşəsinə yiyələnməsində zəruri olan psixopedaqoji cəhətlər var ki, onlar yalnız müəllimin şəxsiyyətini formalşdırmır, həm də təlimin effektivliyini və səmərəliliyini təmin edir, şagird şəxsiyyətinin formalaşmasında özünəməxsus izlər qoyur.

Ümumiyyətlə, psixoloji baxımdan müəllim hazırlığının əhəmiyyətliliyi bu sahənin tədqiqatçıları tərəfindən xüsusi vurğulanır. Bəs görəsən müəllim hazırlığının psixoloji cəhətlərinin müəyyənləşdirilməsi nə üçün əhəmiyyətlidir?

Amerika Psixoloqlar Assosasiyası (APA) bu faktin əhəmiyyətlilyini vurğalayan bir neçə cəhəti göstərir. Onlar aşağıdakılardır:

Əvvəla, belə bir hazırlığın əvvəllər vacib olmadığını iddia etmək olmaz. Bununla yanaşı, deklarativ və real səviyyələr çox fərqləndirlir. Bugünkü müəllim fərqli bir mühitdə işləyir. Məktəblər daha çox və ya az dərəcədə müxtəlif texnoloji avadanlıqlarla təmin olunur. Şübhə yoxdur ki, müəllimin iş alətləri yalnız bir dərslik, bir təbaşir və lövhədir. Amma təhsil texnologiyalarına nüfuz intensiv və dinamikdir. Yeni təhsil texnologiyalarının tətbiqi qaçılmazıdır. Bu müəllim hazırlığının texniki tərəfləridir.

Digər tərəfdən, bu gün fərqli nəsil gənclərimiz var. Biz fərqliyik; ən müxtəlif, çox tez-tez müxalif və uyğun olmayan tələblərimiz var. Müəllim istər-istəməz bunu bilməli və ən gözlənilməz hallarda situasiyaya uyğun olaraq hərəkət etməlidir. Tələblərin gələcək müəllim kimi psixoloji hazırlığı hər şeydən əvvəl, gündəlik təhsil fəaliyyətində yaranan, günümüzdəki çətinliklərin öhdəsindən gəlmək üçün bir davranış kimi qiymətləndirilməlidir.

## Nəticə

Müəllim hazırlığında və pedaqoji fəaliyyətdə vacib cəhətlər müəllimin pedaqoji keyfiyyətləri və şəxsiyyət keyfiyyətləridir. Həmin keyfiyyətlərə pedaqoji erudisiya, pedaqoji məqsədəuyğunluq, pedaqoji təfəkkür, pedaqoji intuisiya, pedaqoji müşahidəlilik, pedaqoji optimizm, pedaqoji hazırcavablılıq, pedaqoji proqnozlaşdırma, pedaqoji refleksiya və s. daxildir. Müəllim hazırlığında bunların nəzərə alınması vacibdir.

## Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya.Ali məktəblər üçün dərslik.Bakı: Maarif, 1989, 540 s.
2. Абдуллина О.А. Общепедагогическая подготовка учителя в системе высшего педагогического образования: Для пед. спец. высш. учеб. Заведений. 2-е изд., перераб. и доп. М.: Просвещение, 1990, с. 40. 141 с.
3. Бахтина С.В. Психолого-педагогические условия подготовки будущих учителей к личностно-ориентированному обучению : дис. ... канд. пед. наук : 13.00.01 Йошкар-Ола, 2006, 240 с
4. Сергев И.С. Основы педагогической деятельности. Учебное пособие. СПб.: Питер, 2004, 316 с
5. Резепов И.Ш.Педагогика и психология. Москва: Эскимо, 2010, 76 с. С.70

**Rəyçi: dos. Ş.Ağakişiyeva**

Göndərilib: 29.11.2020 Qəbul edilib: 30.11.2020